*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 oktyabr 2020-ci il № 69 (2487) Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev: Azərbaycan Ordusu Füzuli rayonunun 3, Xocavənd rayonunun 5 kəndini işğaldan azad edib

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də özünün rəsmi "Twitter" səhifəsində yazıb.

## Prezident İlham Əliyev: Azərbaycan Ordusu Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının bir neçə kəndini işğaldan azad edib

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də özünün rəsmi "Twitter" səhifəsində yazıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva: Dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıram

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 15-də rəsmi "İnstagram" səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Nə dərəcədə insaniyyətdən kənar, rəhmsiz və mənəvi tənəzzülə uğramış olmalısan ki, dəfn mərasimi zamanı qəbiristanlığı qəsdən atəşə tutasan? Dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıram. Həlak olanların ailələrinə və doğmalarına başsağlığı verirəm. Allah rəhmət eləsin".

*Əks-hücum əməliyyatından reportaj*

# Hər qələbən bir tarixdir, Azərbaycan əsgəri!



Azərbaycan əsgəri döyüşə Şuşada dalğalandıracağı bayrağımızı bağrına basıb gedir, döyüşdən dönüşündə öpüb gözlərinin üstünə qoyur. Döyüşənlərin yanına yenə bu ovqatla gedirəm.

Düşüncələrim əsgərlərimizin düşüncələriylə Suqovuşanda qovuşur sanki...

Buludların sıxlığından sıyrılan Günəşin istisi o qədər də təsiredici deyil - payızdı.

Yellər ağacların xırda budaqlarını dolaşıq salır - payızdı.

Təbiətin builki payızını işğalı sonlandıran payız adlandıracağımız günün ərəfəsində düşüncələrimdə mərmilər partlayır, güllələr açılır.

Sentyabrın 27-də başlayan əks-hücum əməliyyatı torpaqlarımızı işğaldan qurtaracaq döyüş kimi davam edir. Bu yaşanılanlar inamdı, etibardı, ruhun zamandan umacağıdı. Döyüşlərdə ilkin qələbələri - strateji yüksəkliklərin, yaşayış məntəqələrinin azad edilməsini ruhumuzun mehrabı bilirik. Yaxın dünənlərəcən ön xətt dediyimiz ərazilərdə döyüş bölgəsindəyəm.

(Ardı 3-cü səhifədə)

AZƏRBAYCAN ORDUSU

# Prezident İlham Əliyev: Biz yalnız insanlarımızın və əsgərlərimizin həyatına təhlükə olan hədəfləri vururuq

*Oktyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "France 24" televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.*



**- Salam, "France 24"ün müsahibə rubrikasına xoş gəlmisiniz. Bu gün biz Azərbaycanın paytaxtı Bakı şəhərindəyik və mən Azərbaycan Prezidenti İlham Əliyevin yanındayam. Prezident Əliyev, bizim suallarımızı cavablandırmağa razılıq verdiyiniz üçün çox sağ olun. Əlbəttə ki, mən Sizdən Dağlıq Qarabağ münaqişəsi haqqında soruşacağam. Humanitar atəşkəs kimi nəzərdə tutulan atəşkəs barədə razılıq imzalandıqdan bəri zorakılıq və müharibə davam etmişdir. Bu gün Sizdən soruşuram, bu atəşkəs rəsmən artıq etibarsız, bitmiş və ləğv edilmiş hesab olunur?**

- Bu, Ermənistanın davranışından asılıdır, çünki biz həmişə öhdəliyimizə sadiq qalırıq. Bildiyiniz kimi, humanitar zəmində atəşkəsin elan olunması qərarı Rusiyadan gəlmişdir və biz bunu dəstəklədik. Çünki düşünürəm ki, ölmüş əsgərlərin cəsədlərini və girovları mübadilə etmək, fəaliyyəti danışıqlar masasında davam etdirmək üçün, bu, doğru qərar idi. Çünki Moskvada elan olunmuş bəyannamədə faktiki olaraq danışıqların əsas prinsiplər çərçivəsində aparılacağı təmin edilmişdir. Bu, həmişə bizim mövqeyimiz olub. Ermənistan tərəfi həmişə prosesi pozmağa və danışıqlar masasına yeni yanaşmaları tətbiq etməyə çalışırdı. Bunlar bizim tərəfimizdən və Minsk qrupunun həmsədrləri tərəfindən rədd edilmişdir. Digər məsələlərlə birlikdə bəyannamənin ən mühüm hissəsi ondan ibarətdir ki, danışıqların formatı dəyişməz olaraq qalacaq. Bu, çox önəmlidir. Ola bilsin, bunun geniş beynəlxalq auditoriya üçün nə anlam daşıması o qədər aydın deyil. Mən, əlbəttə, bu barədə daha ətraflı məlumat verəcəyəm. Çünki Ermənistanda yeni hökumət hakimiyyətə gələndən sonra son iki il ərzində fəaliyyətlərindən biri qondarma "Dağlıq Qarabağ respublikasının hökuməti" danışıqlar masasına cəlb etmək və beləliklə də, danışıqların formatını dəyişmək idi. Çünki iyirmi ildən artıqdır ki, danışıqlar Minsk qrupu prosesi çərçivəsində Ermənistan və Azərbaycan arasında aparılır. Odur ki, qondarma "Dağlıq Qarabağ respublikası hökuməti" danışıqlara cəlb etmək səyləri formatı dəyişdirmək cəhdləri idi. Beləliklə, hər iki tərəf formatın dəyişməz olaraq qalmasına sadiq qaldıqda, bu, hər şeyin əvvəllər razılaşdırılmış çərçivədə olacağı deməkdir. Biz atəşkəs rejiminə əməl edirdik. Lakin bildiyiniz kimi, Ermənistan atəşkəsi kobud şəkildə pozdu və bu, təkcə Gəncədə baş verməyib. Gəncədə mülki vətəndaşlara hücum onların təcavüzkar siyasətini əks etdirir. Həmçinin onlar atəşkəsi hər gün pozurlar. Bu gün mənə məlumat verilmişdir ki, bu səhər saat 7-dən 9-a qədər onlar Tərtər və Ağdam şəhərlərini 150 dəfədən çox artilleriya atəşinə tutublar. Əfsuslar olsun ki, bu gün Tərtərdə mülki şəxslər arasında bir nəfər həlak olub.

**- Lakin Azərbaycan da atəşi davam etdirib, elə deyilmi? Dünya Dağlıq Qarabağdakı Xankəndidə mülki şəxslərin artilleriya atəşinə tutulması görüntülərini görüb.**

- Atəşkəs elan olunandan bəri Azərbaycan tərəfindən bütün artilleriya atəşi dayandırılmışdır. Bu, birincisi. İkincisi, biz işğal olunmuş ərazilərdə istənilən şəhərdə və ya kənddə qəsdən mülki şəxsləri heç vaxt atəşə tutmuruq. Bizim hədəflərimiz yalnız hərbi qurğular idi. Bizim hərbi hədəflərimiz çox diqqətlə müəyyən olunmuşdur. Odur ki, biz yalnız insanlarımızın və əsgərlərimizin həyatına təhlükə olan hədəfləri vururuq. Lakin əfsuslar olsun ki, ermənilər insanların yaşadığı şəhər yerlərində hərbi qurğuları yerləşdirmək taktikasından istifadə edirlər, biz də özümüzü müdafiə etməli idik. Lakin atəşkəs müəyyən olunandan bəri biz ona sadiq idik, ancaq Ermənistan atəşkəsi pozdu, odur ki, biz cavab verməli idik.

**- Beləliklə, Siz deyirsiniz ki, atəşkəs müəyyən olunandan sonra Azərbaycan tərəfindən heç bir zərbə endirilməmişdir? Hətta hərbi hədəflərə də?**

- Xeyr, hərbi hədəflərə zərbələr endirilmişdir. Biz bunu təkzib etmirik. Lakin bu təbiidir, çünki biz özümüzü müdafiə etməli idik. Atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əks halda, Ermənistan üstünlüyə malik olacaq və öz məqsədinə çatacaq. Əslində, onlar elə bunu etməyə çalışırlar. Onlar azad edilmiş əraziləri geri götürməyə cəhd edirlər. Xüsusilə onlar Hadrut şəhərini geri götürməyə cəhd ediblər. Lakin uğursuzluğa düçar oldular. Mənim onlara məsləhətim belədir və mən artıq Ermənistan hökumətinə və həmçinin Ermənistan xalqına açıq şəkildə mesajımı ünvanlamışam ki, onlar azad edilmiş əraziləri geri götürmək cəhdlərini dayandırmalıdırlar. Bu, yalnız yeni qurbanlara səbəb olacaq və qan tökülməsinə gətirib çıxaracaqdır.

**- Bəs, Dağlıq Qarabağdakı kilsələrin bombardman edilməsi görüntüləri barədə nə deyə bilərsiniz? Əlbəttə ki, onlar hərbi hədəflər deyil.**

- Bəli, siz haqlısınız. Biz bu məsələni araşdırırıq. Onu qeyd etmək istəyirəm ki, Azərbaycan dini tolerantlıq səviyyəsi çox yüksək olan bir ölkədir və bu, bütün aparıcı beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən qeyd olunmuşdur. Zati-müqəddəsləri, Vatikanın rəhbəri, Roma Papası Fransisk Bakıya səfəri zamanı açıq şəkildə demişdir ki, Azərbaycanda mədəniyyətlərarası və dinlərarası dialoqun səviyyəsi çox yüksəkdir. Siz yəqin ki, Bakının mərkəzində olan, tərəfimizdən bərpa edilmiş erməni kilsəsini görmüsünüz. Biz onu erməni xalqının mirası kimi qoruyuruq. Biz bu kilsədə erməni dilində 5000-dən artıq qədim kitab saxlayırıq. Lakin Ermənistan bizim məscidlərimizə nə edib? Onlar Ağdamın, Füzulinin və Şuşanın məscidlərinə nə ediblər? Deməli olar ki, onlar nəinki onları dağıdıblar, orada heyvan saxlayırlar. Onlar orada donuz saxlayırlar və bununla təkcə bizim deyil, bütün müsəlmanların hisslərini təhqir edirlər.

Mən demirəm ki, biz bunu qisas almaq üçün etmişik. Xeyr. Biz bu məsələni araşdırmalıyıq. Biz nə baş verdiyindən əmin deyilik. Bizi günahlandırmaq üçün bunun ermənilər tərəfindən törədilə biləcəyinə dair şübhələrimiz var. Əgər bu, Azərbaycan hərbi birləşmələri tərəfindən törədilibsə, bu, səhv olub. Bizim hədəflərimiz arasında heç bir tarixi və ya dini hədəf yoxdur.

**- Mən indi Sizdən diplomatik proses barədə soruşmaq istəyirəm. ATƏT-in Minsk Qrupu, hazırkı həmsədrlər olan Fransa, ABŞ və Rusiya ilə vasitəçilik davam edir. Sizcə Fransanın bu danışıqlarda həmsədr qalması ilə bağlı bu struktur qalmalıdır?**

- Bilirsiniz ki, toqquşmaların əvvəlindən biz bəzi ziddiyyətli bəyanatlar və bəzi mesajlar alırıq. Lakin düşünürəm ki, qarşılıqlı diplomatik səylərimiz sayəsində vəziyyəti nəzarət altında saxlamağa müvəffəq olmuşuq. Bildiyiniz kimi, Prezident Makron mənə bir neçə dəfə telefonla zəng edib və bizim sonuncu söhbətimiz çox müsbət idi. Biz münaqişənin siyasi həll yolunun tapılması səylərinə sadiqik. Mənə məlumat verildi ki, Fransa həmsədr olaraq neytral qalacaq, çünki bu, həmsədrin mandatıdır. Bu səhər mənə məlumat verildi ki, Fransanın Xarici İşlər naziri bəyanat verib ki, Fransa Minsk qrupunun həmsədri olduğuna görə neytral olmalıdır. Biz bu mövqeyi tam dəstəkləyirik və bizim mövqeyimiz hər zaman belə olub ki, bütün həmsədrlər neytral olmalıdır, onlar tərəf tutmamalıdırlar. Çünki bu, onların mandatına ziddir. Hər bir ölkənin milli səviyyədə müttəfiqləri, dostları var, bəzi ölkələrlə daha fəal, bəzi ölkələrlə daha az fəal əlaqələri var. Bu, normaldır və heç kim buna etiraz etmir. Lakin əgər bəzi ölkələrin vasitəçilik mandatı varsa, əlbəttə, əminəm ki, hər iki tərəf - Ermənistan və Azərbaycan neytrallıq gözləyir və hazırda biz bu neytrallığı görürük. Ona görə də, düşünürəm ki, sizin indi qeyd etdiyiniz məsələ bitib, beləliklə, biz həmin səhifəni bağlamışıq.

**- Əvvəlki müsahibələrinizdə Suriyadan 300 döyüşçünün Sizin tərəfinizdə vuruşmaq üçün gətirildiyinə dair açıqlamasından sonra Siz Emmanuel Makrondan üzrxahlıq tələb etmişdiniz. Siz onunla sonuncu dəfə söhbət edən zaman bu məsələ haqqında - onun muzdluların Sizin tərəfinizdə döyüşməyi ilə bağlı ittihamı barədə danışdınızmı?**

- Bəli, əlbəttə ki. Biz bu barədə danışdıq və mən hələ də dəlil gözləyirəm. Mənə heç bir dəlil təqdim olunmayıb. Bizim digər rəsmilərə heç bir dəlil təqdim olunmayıb. Mən Fransa Prezidentindən dəlil təqdim etməyi və danışmaq, bu məlumatı mübadilə etmək üçün müvafiq dövlət qurumlarının rəhbərləri arasında təmaslar təşkil etməyi xahiş etdim. Bu təmas baş tutdu və sizə deyə bilərəm ki, bizə heç bir dəlil təqdim olunmayıb. Ona görə əgər heç bir dəlil yoxdursa, düşünürəm ki, bu şayiələr də keçmişdə qalmalıdır. Bizdə muzdlular yoxdur. Bu, bizim rəsmi bəyanatımızdır. Toqquşmalar başlayandan artıq 2 həftədən çox vaxt keçib və heç bir ölkə bizə buna dair bir dəlil belə təqdim etməyib. Bundan əlavə, bizim buna ehtiyacımız yoxdur. Bizim 100 mindən çox döyüşçüdən ibarət ordumuz var. Bizim hazırda döyüş meydanında etdiklərimiz ordumuzun öz torpaqlarını özünün azad etməyə qadir olduğunu göstərir.

**- Fransanın Xarici İşlər naziri Jan-İv Le Drian deyib ki, Türkiyənin hərbi iştirakı mövcuddur və bu da münaqişənin beynəlmiləlləşdirilməsinə gətirib çıxara bilər. O, bu məsələdə səhv edir?**

- Bəli, o, bu məsələdə səhv edir. Türkiyənin hərbi iştirakı daha bir feyk xəbərdir. Türkiyənin hərbi iştirakı yoxdur. Biz Türkiyə istehsalı olan hərbi avadanlıqlardan istifadə edirik, bu, doğrudur. Lakin biz Rusiya istehsalı olan hərbi avadanlıqlardan, İsrail istehsalı olan hərbi avadanlıqlardan, digər ölkələrin istehsalı olan hərbi avadanlıqlardan istifadə edirik. Bunu pulsuz əldə edən Ermənistandan fərqli olaraq biz bu hərbi avadanlıqları alırıq. Siyasi müstəvi istisna olmaqla, Türkiyə heç bir halda prosesdə iştirak etmir. Burada Türkiyə qoşunları yoxdur. Türkiyənin F-16-ları buradadır, lakin onlar burada birgə hərbi təlimdən sonra qalıblar. Yeri gəlmişkən, ötən il biz hava qüvvələri də daxil olmaqla, Türkiyə ilə 10 birgə hərbi təlim keçirmişik. Bu il pandemiya səbəbindən biz cəmi 2 təlim keçirdik. Belə alındı ki, hərbi təlimdən sonra bu toqquşma baş verdi. Beləliklə, biz F-16-ları yerdə saxlamağı qərara aldıq və onlar yerdədir, havada deyil.

**- Siz Türkiyə istehsalı olan neçə dron cəlb etmisiniz?**

- Hədəflərimizə çatmağımız üçün kifayət qədər varımızdır. Zənnimcə, məni başa düşə bilərsiniz ki, bu, mənim açıqlamamağa üstünlük verdiyim məlumatdır.

**- Lakin onlar bu münaqişədə öz sözünü deyirlər?**

- Əlbəttə, onlar çox müasir, inkişaf etmiş silahlardır. Sizə deyə bilərəm ki, təkcə Türkiyədən əldə etdiyimiz dronlar vasitəsilə biz Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını məhv etmişik, yalnız dronlar vasitəsilə. Əlbəttə, bildiyiniz kimi, biz başqa mənbələrdən olan dronlardan da istifadə edirik. Biz artilleriyadan istifadə edirik, geniş çeşiddə hərbi avadanlıqdan istifadə edirik. Lakin təkcə dronlar Ermənistana 1 milyard dollar ziyan vurub. Bu, onlar üçün ciddi ziyandır. Mənə maraqlıdır onlar bütün bu avadanlığı almaq üçün bu qədər pulu haradan tapıblar, çox güman ki, onu pulsuz əldə ediblər.

**- Təəssüf ki, biz burada yekunlaşmalıyıq. Əlbəttə, Sizə verə biləcəyimiz o qədər çox suallarımız var idi. Prezident İlham Əliyev, bu gün suallarımıza cavab verdiyinizə görə Sizə təşəkkür edirəm. Bizə baxan tamaşaçılara da təşəkkür edirəm. Qarşıda yayımlanacaq beynəlxalq xəbərlərə baxmaq üçün "France 24"ü izləməyə davam edin.**

- Təşəkkür edirəm.

**- Təşəkkür edirəm. Sizinlə söhbət etmək çox maraqlı idi.**

# Hər qələbən bir tarixdir, Azərbaycan əsgəri!

(Əvvəli 1-ci səhifədə)

Döyüşlər neçə gün bundan əvvələ kimi səngər dediyimiz torpaqların o üzündən xeyli aralıda gedir. Müharibədi. Dünya Azərbaycan əsgərinin döyüş əzminin ifadəsi olan qələbə ruhunu, qələbə ruhunun təsdiqi olan qələbələri də görür, onun necə qazanıldığını da, döyüş bölgəsində müharibə ovqatının necə yaşanıldığını da. Bu ovqat həm qələbəyə dönməz inamdı, həm də nisbi narahatlıqdı. Əhali düşmənin quduzluğunu vətənsevərliyiylə dağlayır. İctimaiyyətin orduya inamı, sevgisi, vətənsevərliyi döyüşənlərin döyüş əzmini də, qələbə ruhunu da kükrədir. Bu kükrəyiş Böyük Qələbənin başlanğıcıdı!..



Döyüş xəttinə bu düşüncələrlə çatmışdım.

Döyüş bölgəsində ürəklər danışır. Ürəklərin sözünü dinləmək də vətənsevərlikdi, dinləyib düşüncələrə köçürmək də. Əsgərlərin, zabitlərin dedikləri qətiyyətdi, ruhun kükrəyişidi, qələbə ruhunun təsdiqidi. Deyilənlər söz biçimində cücərir, danışanın da, dinləyənin də ruhunu nurlandırır. Bu nurlandırmada Böyük Qələbənin işığı da görünür.

Döyüşlərdə Azərbaycan Ordusu neçə-neçə strateji yüksəkliyi, neçə-neçə yaşayış məntəqəsini, bu sıradan Cəbrayıl şəhərini, Hadrut qəsəbəsini ermənisizləşdirdi, düşmənin yüzlərlə döyüş texnikası, artilleriya qurğusu, komanda məntəqəsi, canlı qüvvəsi məhv edildi. Xalq görür, yerə-göyə sığışmayan qürurla bir daha inanır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini yüksək döyüş əzmiylə, qələbə ruhuyla döyüşən Azərbaycan Ordusu həll edir...

Kəlmələşəndə zabit Elçin Quliyev əsgərlər də dedi, döyüşçülər də; ucalıqda döyüşdən qələbəylə qayıdanların əhatəsində müharibə ovqatı söhbətimizin terminologiyasını da əhatələyir:

- Bayaq döyüşçülərimiz deyəndə baxışlarında bircə anlığa titrəyiş hiss olundu. Bu titrəyiş gözəl titrəyişiydi. Bu titrəyişin əsgərlərimizə sevgi olduğunu mən də duydum, əsgərlərimiz də.

Bu fikirləri zabit Emil Hüseynov "Döyüşürlər, deməli, döyüşçüdürlər. Hərbi xidmətə də döyüşçü olmaq istəyiylə başlayıblar, həqiqi hərbi xidmətdən sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kimi yenidən hərbi xidmətə də bu niyyətlə qayıdıblar" kəlmələriylə tamamlayır. "Bu duru niyyət şəxsi heyətin mənəvi-psixoloji hazırlığının tərkib hissəsidi", - deyirəm. Əsgərlərin düşüncələri düşüncələrimlə elə gözəl qoşalaşır ki!

- Ali Baş Komandanın əmrini tam qələbəylə başa çatdıracağıq. Döyüş hazırlığımız var, ordumuzun silahlanmasına ən müasir döyüş texnikaları, artilleriya qurğuları daxil edilib. Biz əks-hücum əməliyyatını Ali Baş Komandanın əmriylə torpaqlarımızı işğaldan azad edəcək döyüş bilirik və bunu xalqımızı sevindirəcək səviyyədə yerinə yetirəcəyik (əsgər Məhəmməd Məlikov).

- Biz də həmişə torpaqlarımızı işğaldan azad edən əsgərlərin sırasında olmaq istəmişik. Niyyətimiz gerçəkləşir. Düşməni döyüş-döyüş uzaqlaşdırırıq. Yəni, Böyük Qələbə ərəfəsindəyik" (əsgər Aqil Həsənov).

"Döyüşlər torpaqlarımızın işğaldan azad edilməsiylə başa çatacaq. Düşmən müqavimət göstərir. Bu müqavimət çarəsiz müqavimətdir. Müharibəni uduzan düşmənin son döyüşlər ərəfəsində göstərdiyi müqavimətdr" (əsgər Mehrab Axundov).

"Hər kəlmədə inam, hər kəlmədə döyüş əzmi, qələbə ruhu gördüm və bu kəlmələr düşüncələrimizi əsgərlərimizin düşüncələriylə ruhən qoşalaşdırdı. Bu qoşalaşmanın səmti Böyük Qələbəyə sarıdı" - deyirəm. Həm də qürurla deyirəm. Zabit Emil Hüseynov bu qüruru hamımıza könül xoşluğu gətirən kəlmələrlə tamamlayır:

- Əsgərlərimizin xidmət amalı qələbədi, düşüncələri də müharibənin son gülləsinin atılacağı məqama - Böyük Qələbənin boyu tamlığıyla görünəcəyi məqama bağlıdı. Rütbəmizdən asılı olmayaraq hər birimiz bu məqamın əsgəriyik.



Uzaqlarda mərmi partlayır. Baxışlarımız o tərəfə yönəlir. Zabit Elçin Quliyev "Bizimkilərdi", - deyir. Bu bir kəlmə sözün doğmalığına sarılıram. Dirsəyim dizimdə, əlim üzümdə vəzifə borcu kimi, vətəndaşlıq borcu kimi sonacan izlədiyim bu atışların düşmənin sığındığı mövqeni dağıtdığını zərrəcə gümanlamıram. Onda 2016-cı ilin Aprel döyüşlərində bir əsgərdən eşitdiklərimi xatırlayıram: öz mərmilərimizlə öz torpaqlarımızı yaralamağa məcburuq. İndi Azərbaycan əsgərinin atdığı mərmilərin düşməni geri çəkilməyə məcbur etdiyini görəndə, biləndə başqa ovqat yaşanılır. Onda əsgərin dedikləri düşüncələrimi titrətmişdi. İndi həmin əsgər düşmənin mövqelərinə mərmi atılanda, əsgərlərimizin mərmini necə atdığını, düşmənin mövqelərinin necə dağıdıldığını biləndə nələr düşünür görəsən? Onun qürurunu ictimaiyyətin doğma qüruru bilirəm.

Görəsən, o əsgər bu atışlara nə deyərdi? - "Atın!", - deyərdi, "Düşməni sərhədlərimizin o üzünə kürüyün. Sıranızda olsaydım, mən də atardım. Mərmi atardım, əmr olsa, güllə ata-ata irəli şığıyardım...", - deyərdi...

Ucalığa duman çökür. Qarşı tərəfə bu dumanlığın içindən baxır, heç nə görə bilmirik, görə bilmədiklərimizi güman edirik. Gümanlarımızı zabit Elçin Quliyev gerçəkliyə uyğunlaşdırır:

- Oralar düşmənin mövqeyidi. İndi duman onları daldaladığına görə bir azca özlərinə gəliblər. Məqamında, komandanlıq əmr verəndə o mövqe də dağıdılacaq, ora sığınanlar da həlak olacaq. Düşmənin döyüşdən uzaqlaşanları döyüşənlərindən bir az ağıllıdı. Düşmənin döyüşdən uzaqlaşanları çoxdu. Yaxın vaxtlarda erməni ordusunda fərarilik kütləviləşəcək...

- Döyüşdən uzaqlaşan düşmən yaşamaq qazanır, - deyirəm. Onda əsgərlərin qaşları çatılır, yumruqları düyünlənir, baxışları tündləşir. Bunların da qələbə ruhunun əlamətləri olduğunu duymaq çətin deyil. Duyduqlarımdan söz açanda zabit Elsevər Həsənov baxışlarını baxışlarımızın tünlüyündən sıyırıb döyüşdən qayıdanlarımıza baxır:

- Qələbə ruhu döyüşün əsası, qələbə niyyəti qələbənin ruhi, mənəvi başlanğıcıdı. Əsgərlərimiz qələbə üçün döyüşürlər, əmri yerinə yetirirlər. Direşən düşmən döyüşçülərimizin atışlarıyla ölür, qalanları qaçır. Qaçanı öləninin tayıdı, öləni qaçanının, - dedikləri düşündürücü fikir kimi düşüncələrimizə hopur.

- Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, bölgədə bir beynəlxalq terrorizm tamamilə ləğv ediləcək (zabit Tural Əsgərli).

Məsafə baxımından o ucalıqdan uzaqdayam, dediklərini düşüncələrimə hərbçi zəmanəti bildiyim əsgərlərin, zabitlərin əhatəsində yaşadıqlarımı bir neçə günün o üzündə yaşanılan qürurun cazibəsində yenidən yaşayıram. Azərbaycan Ordusunun döyüşlərdə qazandığı qələbələr düşməni vahimələndirdi, bu vahimələnmənin sonluğu havadarlara davamlı zənglər oldu, xahişlər oldu. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini düyünə salmağa çalışan, illərlə imitasiya niqabına sığınan Ermənistan humanitar atəşkəs iltimasıyla havadarlarına yalvardı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində dediyi kimi, Ermənistana sonuncu şans verildi. Ermənistana şans ordusunu işğal edilmiş ərazilərdən çıxartmaq üçün verilmişdi, hərbi qulluqçularını ölümün içindən çıxartmaq üçün verilmişdi. Sonuncu şans Ermənistana Mingəçeviri, Gəncəni raket atəşinə tutmaq üçünmü lazım idi? Özümü buna qərar verir, ona "qorxma" deyənlərmi var? İndi sıralarında olsaydım, özümün özümə verdiyim bu sualları mənə döyüşçülər verərdi. Ermənistan da, Ermənistanın havadarları da bilsinlər ki, "Sirkə nə qədər tünd olsa, öz qabını çartladar", - deyərdilər. Onu da deyərdilər ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini beynəlxalq təşkilatlar deyil, Azərbaycan əsgəri həll edir. Azərbaycan Prezidenti xalqa müraciətində deyib: "Məhz hərbi yolla bu məsələ həll olunur. Hərbi, ondan sonra siyasi". Siz həm də Ali Baş Komandanın "məsələ məhz hərbi yolla həll olunur" qətiyyətinin əsgərisiniz. Azərbaycan əsgərinin hərbi yolla həll etdiyini diplomatiyamız davam etdirəcək...



Neçə gün əvvəl döyüş bölgəsində, əks-hücum əməliyyatında döyüş əmrini yerinə yetirmiş əsgər İsrafil İsgəndərovun dedikləri bizim inamımızı, əsgər yoldaşlarının döyüş əzmini, qələbə ruhunu coşdurmuşdu:

- Əks-hücum əməliyyatı kimi başlayan müharibəni əsgərlərimizin qələbə ilə başa çatdıracağını xalqımız da bilir, düşmən də, onun tərəfini saxlayanlar da, havadarları da. Düşmən döyüşlərdə ağır itkilərə məruz qalır. Ona bu ağrıları Azərbaycan əsgəri yaşadır. Onun döyüşü davam etdirən bütün hərbi qulluqçularını məhv edəcəyik. Biz qələbənin əsgəri olacağıq. Azərbaycan Ordusu əks-hücum əməliyyatını Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcək əməliyyat kimi davam etdirir. Ağır itkilərə məruz qalan düşmənin olanqalan gücü tükənməkdədir. Düşmən döyüşdən qaçır, yəni, əsgərlərimizin qüdrəti onun əsgərlərini son həddə qorxuya salıb. Komandirimiz deyir ki, döyüşdən qaçmaq təkcə bir döyüşün deyil, müharibənin məğlubiyyətidir.

Onda Əsgər Rahib İsgəndərov demişdi ki, hər birimiz müharibədə şəhid olanlarımızın ruhunu sıramızda bilib döyüşürük, qəhrəmanların döyüş yolunu davam etdirərək döyüşürük, işğal olunmuş ərazilərimizi azad etmək üçün döyüşürük.

Əsgər Hacımayıl İsmayılov əsgər yoldaşının dediklərini belə tamamlamışdı:

- İctimaiyyətin orduya güvənci, inamı hər birimizin döyüş əzmini, deməli, qələbə ruhunu yüksəldir. Xalqın mənəvi dəstəyi bizim gücümüzü, qələbə ruhumuzu daha da artırır. Qətiyyətlə döyüşürük. Ermənistan ordusu bizim qətiyyətli hücumlarımızın qarşısında dayana bilmir. Erməni hərbçiləri təkcə döyüşdən deyil, döyüşməkdən də qaçır.

Azərbaycan Ordusu torpaqlarımızı işğaldan tamamilə azad etməyə qadirdir! Azərbaycan Ordusu əks-hücum əməliyyatını Böyük Qələbə ilə tamamlayacaq!.. Xalq əks-hücum əməliyyatının icraçılarını Böyük Qələbənin əsgəri bilir və var səsiylə deyir ki, hər qələbən bir tarixdir, Azərbaycan əsgəri!

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Yaşayış məntəqələrimizi hədəfə alan düşmən raketləri bölmələrimizin qabaqlayıcı zərbəsi ilə sıradan çıxarılıb

*Oktyabrın 14-də Hərbi İnformasiya Mərkəzində Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, ölkəmizdə akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri üçün təşkil olunan brifinqdə Azərbaycan Hərbi Hava Qüvvələrinin Qərargah rəisi general-mayor İkram Əliyev mülki əhalini hədəfə alan Ermənistan silahlı qüvvələrinə məxsus operativ-taktiki komplekslərin taktiki xüsusiyyətləri və onların imkanları barədə məlumat verib.*






Brifinqdə çıxış edən general-mayor İ.Əliyev 9K72 operativ-taktiki raket kompleksinin 8K14 raketi ilə birgə canlı qüvvəni, idarəetmə məntəqələrini, aerodromları və digər əsas obyektləri məhv etmək üçün təyin olunduğunu bildirib. Qeyd edib ki, bu kompleks silahlanmaya 1967-ci ildə qəbul edilib. Raketin atəş məsafəsi 50-300 kilometr, maksimal uzaqlığa uçma vaxtı 5 dəqiqə, start çəkisi 5862 kiloqram, doldurulmamış raketin çəkisi isə 2076 kiloqramdır. Uzunluğu 11 metr 164 santimetrdir. Korpusunun diametri 880 millimetrdir. Kompleksin ümumi çəkisi 37 ton, döyüş heyəti 8 nəfərdən ibarətdir.

Xüsusi vurğulanıb ki, 8K14 raketi reaktiv maye mühərrikli, ayrılmayan döyüş hissəli, avtonom idarəetmə və qəza partlayış sistemli ballistik raketdir. Raket fuqaslı 987 kiloqram həcmli partladıcı döyüş hissəsi ilə təchiz olunub. Həmin döyüş hissəsi bir hektara qədər ərazidə döyüş texnikasını və şəxsi heyəti məhv etməyə qadirdir. Uçuş trayektoriyasının hündürlüyü uzaq məsafəyə atılanda 86 kilometr, yaxın məsafəyə atış zamanı isə 24 kilometrdir. Uçuş vaxtı 165-313 saniyədir.

Düşmənin silahlanmasında olan taktiki və operativ taktiki raket sistemlərinin hədləri barədə fotoslaydlar əsasında məlumat verən general İ.Əliyev diqqətə çatdırıb ki, oktyabrın 11-də Mingəçevir və Gəncə şəhərlərinə zərbələr endirilib. Fotoşəkillərdən də göründüyü kimi, əgər bu raket atılsaydı, o hətta Bakının da ətrafına düşə bilərdi. Burada böyük infrastrukturlar daxil olmaqla zərbə endirilə bilərdi. Ötən gün bu sistemlər Dağlıq Qarabağ ərazisinə keçsəydi, həmin sistemlərin atəş məsafəsi Bakını da ötə bilərdi.

Əldə olunan kəşfiyyat məlumatları əsasında müəyyənləşdirilib ki, Ermənistan tərəfindən atılan "Toçka-U" raketi Xankəndi ətrafındakı Ballıca yaşayış məntəqəsinin yanından start mövqe tutaraq oradan zərbə endirib. Mülki yaşayış məntəqələrimizə atılan bu ballistik raketlərin bir hissəsi Azərbaycan Hərbi Hava Qüvvələrinin hava hücumundan müdafiə bölmələri tərəfindən vaxtında aşkarlanaraq məhv edilib. Amma səmərəli mübarizə ondan ibarətdir ki, həmin ballistik raketlərin buraxıcı qurğuları raketlər buraxılmamışdan əvvəl yerdə məhv edilməlidir. Azərbaycan Ordusu ballistik raketlərin buraxıcı qurğularına və onları dəstəkləyən infrastruktura qarşı müxtəlif növ kəşfiyyat və zərbə vasitələrindən istifadə edərək xüsusi əməliyyatlara başlayıb.

Beləliklə, ballistik raketlərə qarşı xüsusi əməliyyatların nəticəsində oktyabrın 12-də saat 14:00 radələrində işğal altındakı Qubadlı rayonu ərazisində bir ədəd "Toçka-U" raketi məhv edilib. Oktyabrın 14-də gecə saat 01:00 radələrində iki ədəd və səhər 08:30 radələrində bir ədəd olmaqla ümumilikdə üç ədəd "Elbrus" ballistik raket qurğusu raketləri ilə birlikdə ordumuz tərəfindən aşkarlanaraq məhv edilib.

General-mayor İ.Əliyev bildirib ki, 300 kilometr atış məsafəsinə malik olan "Elbrus" ballistik raketi ön cəbhəyə kifayət qədər yaxın gətirildiyi zaman Bakı şəhərinə çatacaq uçuş məsafəsinə də malikdir. Əgər o, Dağlıq Qarabağ ərazisinə gətirilsəydi, hansı dağıntılara səbəb ola biləcəyini aydın təsəvvür etmək mümkündür. Əldə edilmiş kəşfiyyat məlumatları əsasında Dağlıq Qarabağda yerləşən 1-ci ümumqoşun ordusunun tərkibində belə hərbi hissənin olmadığını bilirik. Bu silah Ermənistanın 71-ci raket alayının tərkibindədir. Həmin hərbi hissə Stepanavan şəhərində yerləşir.

Sonra hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilən həmin sistemlərin döyüş mövqeyi tutduğu, köməkçi avtomobillərin də yaxınlaşdığı və raketlərin atışa hazırlandığı əks olunan video nümayiş olunub.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Düşmən cəbhənin müxtəlif istiqamətlərində geri çəkilməyə məcbur edilib

***15 oktyabr 2020-ci il.***

Oktyabrın 14-dən 15-ə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində əvvəlki günlərdə olduğu kimi vəziyyət gərgin olaraq qalıb.

Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstərib. Qoşunlarımız tərəfindən həyata keçirilən uğurlu tədbirlər nəticəsində qarşı tərəf ciddi itki verib və cəbhənin müxtəlif istiqamətlərində geri çəkilməyə məcbur edilib.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd "Tor-M2KM" zenit-raket kompleksi, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-20, 1 ədəd D-30 və 2 ədəd D-1 haubitsa topu, bir neçə PUA-sı və avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumatlara əsasən, Ermənistan silahlı qüvvələrinin müvəqqəti işğal etdiyi ərazilərdəki qüvvə və ehtiyatlarına ağır zərbə vurulub. Düşmənin canlı qüvvəsi, döyüş texnikası, silah-sursatı, yanacağı tükənmək üzrədir.



***16 oktyabr 2020-ci il.***

Oktyabrın 15-i gün ərzində və 16-na keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut istiqamətlərində əməliyyat şəraiti yenə də gərgin olaraq qalıb.

İşğaldan azad edilmiş Cəbrayıl və Hadrut istiqamətlərində yerləşən bölmələrimizin mövqelərini, eləcə də cəbhə xəttinə yaxın kəndləri düşmən dünən gün ərzində raket, artilleriya və minaatanlardan atəşə tutub.

Gecə ərzində cəbhənin bəzi istiqamətlərində düşmən fəallaşmağa cəhd göstərib. Bunun qarşısı qoşunlarımız tərəfindən alınıb, düşmən ciddi itki verib.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd BM-21 "Qrad" YARS, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş 8 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumatlara əsasən, Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə zolağında hərbi qulluqçular və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər arasında kütləvi şəkildə fərarilik qeydə alınıb. Bunun qarşısını almaq məqsədilə Ermənistan rəhbərliyi Gorus və Turşsu yaşayış məntəqələrinin avtomobil yollarında hərbi polisin komendant postlarını qurub.

5-ci dağatıcı alayın müdafiə zolağında mövqe tutan şəxsi heyət arasında xeyli sayda ölən və yaralanan var. Alayın bölmələrində ərzaq və döyüş sursatı çatışmır.

10-cu alayın müdafiə zolağına könüllüləri daşıyan avtomobil texnikasının vurulması nəticəsində ölən və yaralanan var. Geri çəkilən düşmən, xeyli sayda avtomobil və zirehli texnikanı mövqedə buraxaraq qaçıb.

9-cu motoatıcı alayın müdafiə zolağında artilleriya batareyası məhv edilib, alay komandirinin müavini yaralanıb.

Dağlıq Qarabağ ərazisinə gələn muzdluların bir qismi döyüşə girməkdən imtina edib.

Qoşunlarımız bütün cəbhə boyu əməliyyat üstünlüyünü saxlayır.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# "Ermənistan tərəfi təxribat xarakterli yalan məlumatlar yaymağa davam edir"

*Ermənistanın işğal etdiyi Qırmızı Bazar yaşayış məntəqəsinin guya Azərbaycan Ordusu tərəfindən "Smerç" YARS vasitəsilə atəşə tutulması və mülki əhaliyə xəsarət yetirilməsi barədə yayılan xəbərin heç bir əsası yoxdur və yalandır.*

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib. Məlumatda deyilir: "Bir daha bildiririk ki, humanitar atəşkəs rejiminə tam əməl edən Azərbaycan Ordusu yalnız zərurət yarandıqda qarşı tərəfi susdurmaq məqsədilə legitim hərbi obyektlərə atəş zərbəsi endirmək hüququnu özündə saxlayır".

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 623
Nüsxə 4000